# İDMAN

www.azsport.az

Qəzet 1932-ci ildən çıxır

AZƏRBAYCAN RESPUBLİKASI GƏNCLƏR VƏ İDMAN NAZİRLİYİNİN ORQANI

№ 18 (7113) 7 sentyabr 2021-ci il Qiyməti 40 qəpik


TOKYO 2020 PARALYMPIC GAMES

## Yenilməzlərin zəfər yolu

### Paralimpiya Oyunlarından 14 qızıl, 1 gümüş, 4 bürünc medal



*XVI Yay Paralimpiya Oyunları da tarixə qovuşdu. Hər iştirakında Paralimpiya Oyunlarından böyük uğurlarla qayıdan Azərbaycan komandası bu dəfə Tokiodan hər kəsi heyran edən möhtəşəm zəfərlə döndü.*

Əgər paralimpiyaçılarımız indiyədək qatıldıqları 6 Paralimpiya Oyunlarından ümumilikdə 9 qızıl medal gətirmişdilərsə, bu dəfə ən yüksək əyarlı medalların sayı 14 oldu. "Yenilməzlər zəfərə doğru" şüarı ilə Yaponiya paytaxtına yollanan idmançılarımız qalib bir xalqın nümayəndələri kimi idman arenalarını və idmansevərlərin ürəklərini fəth etdilər. Gəlin yenilməzlərimizin Tokiodakı bu zəfər yolunu birlikdə izləyək.

Avqustun 24-də start götürən XVI Yay Paralimpiya Oyunlarında 160 milli komandadan, o cümlədən qaçqınlar yığmasından təqribən 4400 idmançı mübarizə aparırdı. Butan, Qrenada, Maldiv, Paraqvay, Sent-Vinsent və Qrenadin komandaları Oyunlarda ilk dəfə iştirak edirdi. Paralimpiadanın proqramında idmanın 22 növü yer almışdı. Proqrama parabadminton və parataekvondo ilk dəfə salınmışdı. İdmançılar ümumilikdə 539 dəst medal uğrunda mübarizə apardılar.

Ölkəmizin 34 paralimpiyaçısı "Tokio-2020"də idmanın 6 növü üzrə 45 proqramda qüvvəsini sınadı. Azərbaycan Tokioda cüdo, atletika, pauerliftinq, üzgüçülük, güllə atıcılığı və taekvondo yarışlarında təmsil olundu.

Yarışlara komandamızdan ilk olaraq avqustun 26-da pauerliftinq üzrə milli komandanın üzvü Pərvin Məmmədov qoşuldu. 49 kiloqram çəki dərəcəsində mübarizə aparan paralimpiyaçımız 156 kq nəticə ilə bürünc medala sahib olaraq komandamızın medal hesabını açan və Tokioda Azərbaycanın bayrağını ilk dalğalandıran idmançımız oldu.

Ertəsi gün bayrağımızın dalğalanması ilə yanaşı himnimiz də səsləndi. Özü də bir gündə 3 dəfə. İlk qızıl medal sorağı cüdo yarışlarında 48 kq çəki dərəcəsində çıxış edən Şəhanə Hacıyevadən gəldi. İdmançımız yaponiyalı Şuzika Hanqai və Viktoriya Potapovaya (Rusiya Paralimpiya Komitəsi) qalib gələrək qızıl medal uğrunda görüşə çıxdı. Finalda Fransa təmsilçisi Sandrine Martineti üstələyən Ş.Hacıyeva Paralimpiya çempionu oldu.

səh. 2

## Yaponiyanın Tokio şəhərində keçirilən XVI Yay Paralimpiya Oyunlarında ən yüksək nəticələrə görə Azərbaycan Respublikasının əlilliyi olan idmançıları və onların məşqçiləri üçün mükafatların müəyyən edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Yaponiyanın Tokio şəhərində keçirilən XVI Yay Paralimpiya Oyunlarında ən yüksək nəticələr göstərmiş Azərbaycan Respublikasının əlilliyi olan idmançılarını və onların məşqçilərini həvəsləndirmək məqsədilə *qərara alıram:*

**1.** Yaponiyanın Tokio şəhərində keçirilən XVI Yay Paralimpiya Oyunlarında əldə etdikləri ən yüksək nəticələrə görə Azərbaycan Respublikasının əlilliyi olan idmançıları və onların məşqçiləri üçün mükafatların məbləği aşağıdakı qaydada müəyyən edilsin:

**1.1.** birinci yeri tutan hər bir idmançıya 200 000 (iki yüz min), onun məşqçisinə 100 000 (yüz min) manat;

**1.2.** ikinci yeri tutan hər bir idmançıya 100 000 (yüz min), onun məşqçisinə 50 000 (əlli min) manat;

**1.3.** üçüncü yeri tutan hər bir idmançıya 50 000 (əlli min), onun məşqçisinə 25 000 (iyirmi beş min) manat.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 6 sentyabr 2021-ci il*

## Azərbaycan idmançıları I MDB Oyunlarında uğurla çıxış edirlər



*Sentyabrın 4-də Tatarıstanın paytaxtı Kazan şəhərində I MDB Oyunları start götürüb. Bir həftə davam edəcək Oyunlarda 9 ölkədən 1640 idmançı (14 yaşdan 23 yaşa qədər) mübarizə aparır. Yarışlar ümumilikdə, 182 medal dəsti uğrunda 16 idman növündə keçirilir.*

Azərbaycan bu oyunlarda badminton (8 nəfər), basketbol 3X3 (4), boks (8), cüdo (16), futzal (13), stolüstü tennis (8), stend və güllə atıcılığı (3), karate (20), kəmər güləşi (4), kürəş (5), qadın güləşi (6), sambo (7), sərbəst güləş (10), yunan-Roma güləşi (9), muaytay (tayboks) (6) yarışlarında ümumilikdə, 118 idmançı ilə təmsil olunur.

Mübarizəyə əvvəlcə boksçular qoşulublar. İlk yarış günündə dəri əlcək ustalarımızdan ikisi yarımfinala vəsiqə qazanıb. Təmsilçilərimiz İbrahim Zeynalov (50 kq) Muinxon Mavlonova (Tacikistan), Tağı Nəsibov (48 kq) isə Vadim Veçerskiyə (Belarus) dörddəbir finalda qalib gəliblər.

İkinci yarış günündə yunan-Roma güləşçilərimiz və qadın boksçularımız mübarizəyə qoşulublar.

Ölkəmizi güləşin bu növündə gənclərdən ibarət millimizin 8 üzvü təmsil edib. Onlardan 7-si qrup mərhələsini uğurla adlayıb. Yekunda 8 güləşçimizdən 6-sı fəxri kürsüyə qalxıb.

səh. 5

## Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva paralimpiyaçılarımızı təbrik edib

***Azərbaycan idmançılarının "Tokio-2020" Yay Paralimpiya Oyunlarında möhtəşəm çıxışlarını Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva diqqətdə saxlayıblar.***

Dövlət başçısı tvitterdəki öz hesabında, birinci xanım isə rəsmi instaqram səhifəsində hər gün uğur qazanan paralimpiyaçılarımızın qələbələrinə münasibətlərini paylaşımlar edərək bildiriblər.

Prezident İlham Əliyev idmançıları inamlı qələbələr qazandıqlarına, ölkəmizə qələbə sevincini yaşatdıqlarına görə səmimi qəlbdən təbrik edərək komandanın digər üzvlərinə də növbəti çıxışlarda uğurlar arzulayıb.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva mükəmməl fiziki hazırlıq və yenilməz qələbə əzmi nümayiş etdirən idmançılarımızın Azərbaycanı "Tokio-2020" XVI Yay Paralimpiya Oyunlarında layiqincə təmsil edərək göstərdikləri yüksək nəticələrin onların bacarıqlarının, əla səviyyədə hazırlıqlarının, məqsədyönlülüklərinin və iradələrinin əyani sübutu olduğunu vurğulayıb.

## Azərbaycan Milli Paralimpiya Komitəsinin rəhbərliyinin təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq *qərara alıram:*

XVI Tokio Yay Paralimpiya Oyunlarında qazanılmış yüksək nailiyyətlərə və Azərbaycan idmanının inkişafında xidmətlərinə görə Azərbaycan Milli Paralimpiya Komitəsinin aşağıda adları çəkilən rəhbər şəxsləri təltif edilsinlər:

**"Şöhrət" ordeni ilə**

Rəhimov İlqar Elxan oğlu

**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Məmmədov Kamal Cabir oğlu

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 6 sentyabr 2021-ci il***

## Azərbaycan Milli Paralimpiya komandası üzvlərinin "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq *qərara alıram:*

XVI Tokio Yay Paralimpiya Oyunlarında qazanılmış yüksək nailiyyətlərə və Azərbaycan idmanının inkişafında xidmətlərinə görə Azərbaycan idmançılarının aşağıda adları çəkilən məşqçiləri "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilsinlər:

İbişov İlqar Əsgər oğlu
İbrahimov Ramin İbrahim oğlu
Kirillov Fyodor Borisoviç.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 6 sentyabr 2021-ci il***

## Azərbaycan Milli Paralimpiya komandası üzvlərinin təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq *qərara alıram:*

XVI Tokio Yay Paralimpiya Oyunlarında qazanılmış yüksək nailiyyətlərə və Azərbaycan idmanının inkişafında xidmətlərinə görə aşağıda adları çəkilən Azərbaycan idmançıları və onların məşqçiləri təltif edilsinlər:

**"Şöhrət" ordeni ilə**

Astanov Elvin Əmrah oğlu
Heydari Hamed Moharramali oğlu
Salei Raman Sergeyeviç

**1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Aslanov Orxan Əlövsət oğlu
Hacıyeva Şəhanə İbadət qızı
Hüseynova Xanım Akif qızı
İsrafilov Vəli Rəşadət oğlu
Kərimova Dürsədəf Muxtar qızı
Rəhimli Hüseyn Natiq oğlu
Şirinli Vüqar Tofiq oğlu
Vəliyeva Lamiyə Rövşən qızı
Vəliyeva Sevda Rasim qızı
Zəkiyev İlham Əzizağa oğlu

**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Abaslı Namiq Zülfüqar oğlu
Məmmədov Pərvin Rasim oğlu
Nəcəfzadə Səid Əli oğlu

**3-cü dərəcəli "Əmək" ordeni ilə**

Culfayev Alavərdi Abasoviç
Məmmədov Rəşad Nizami oğlu
Zayets Vladimir Vladimiroviç

**"Tərəqqi" medalı ilə**

Ağakişiyev Fərid İbili oğlu
Əliyev Elvin Adil oğlu
Əliyev Elvin Elman oğlu
Əliyev Rəşad Rauf oğlu
Əliyev Tofiq Zöhrab oğlu
İbrahimov İbrahim Eldar oğlu
Məmmədov Rasim Məmməd oğlu
Məmmədov İmamverdi Ağaverdi oğlu
Nağıyev Mehdi Əli oğlu
Panyutin Oleq Viktoroviç
Zahidov Azad Zakir oğlu.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 6 sentyabr 2021-ci il***

# Yenilməzlərin zəfər yolu



***(Əvvəli 1-ci səhifədə)***

İkinci qızıl medal üzgüçümüz Raman Saleinin payına düşdü. 100 metr məsafəyə arxasıüstə üzgüçülük yarışlarında çıxış edən idmançımız finalda ən yaxın rəqibi - ukraynalı S.Klipperti 0,41 saniyə qabaqlayaraq 1 dəqiqəyə 0,30 saniyə nəticə ilə qalib oldu.

Daha bir qızıl medal həmin gün cüdoçu Vüqar Şirinlidən gəldi. 60 kq çəki dərəcəsində çıxış edən təmsilçimiz ilk görüşdə türkiyəli Recep Çiftçiyə qalib gələrək yarımfinala yüksəldi. Növbəti görüşündə rumıniyalı Aleks Boloqanı tatamidən məyus yola salan V.Şirinli finalda gərgin idman mübarizəsi şəraitində keçən görüşdə qazaxıstanlı Anuar Sarıyevi məğlub edərək Tokio Paralimpiadasının qalibi oldu.




66 kq çəkidə Namiq Abaslı ilk görüşdə Bannon İbanesə (İspaniya) məğlub oldu. Rəqib finala yüksəldiyi üçün idmançımız təsəlliverici görüşdə iştirak hüququ qazandı. Puerto-Riko təmsilçisi Luis Labdiel Perezi və Viktor Rudenkonu (Rusiya Paralimpiya Komitəsi) üstələyən N.Abaslı bürünc medal uğrunda görüşdə Ukrayna idmançısı David Xorava ilə qarşılaşdı. Rəqibini məğlub edən N.Abaslı Paralimpiya Oyunlarının bürünc medalına sahib oldu.

Digər paracüdoçumuz Bəsti Səfərova (52 kq) ilk görüşdə meydan sahiblərindən Yui Fucivaraya uduzdu. Rəqib finala yüksəldiyi üçün təmsilçimiz təsəlliverici görüşə çıxsa da, ukraynalı Nataliya Nikolayçikə məğlub olaraq Paralimpiadanı medalsız başa vurdu.

Azərbaycan komandasının Tokio Paralimpiadasında bayraqdarı Oloxan Musayev atletikanın kürəitələmə yarışında 11,89 metr nəticə ilə beşinci oldu.

Beləliklə, günün yekununda Azərbaycan komandası medalçılar siyahısında ilk onluğa daxil oldu.

Avqustun 28-ci idmançılarımız üçün ən uğurlu gün oldu. Həmin gün yarışa qatılan 4 idmançımızın 4-ü də qızıl medal qazandı.

İlk olaraq cüdoçumuz Sevda Vəliyeva fərqləndi. 52 kq çəki dərəcəsində çıxış edən idmançımız qazaxıstanlı Dayana Fedossova və Türkiyə idmançısı Zeynep Çelikə qalib gələrək həlledici mərhələyə yüksəldi.

***(Ardı 3-cü səhifədə)***



# Vətən müharibəsinin rəmzi Paralimpiya Oyunlarının açılışında




***Avqustun 24-də Tokiodakı Milli Olimpiya Stadionunda XVI Yay Paralimpiya Oyunlarının təntənəli açılış mərasimi keçirilib.***

Açılış mərasimində əvvəlcə Yaponiyanın dövlət bayrağı tanınmış yerli paralimpiyaçılar tərəfindən meydana gətirilib və özünümüdafiə qüvvələrinin qoşun növlərinin nümayəndələri dövlət himninin müşayiəti ilə bayrağı qaldırıblar.

Meydanda rəngarəng detalları və müasir texnologiyaları əks etdirən kompozisiya çoxsaylı iştirakçılar tərəfindən təqdim olunub. İlkin kompozisiya atəşfəşanlıqla başa çatıb. Tokionun Paralimpiya Oyunlarına hazırlığını, paralimpiyaçıların müxtəlif idman növləri üzrə yarışlarda iştirakını əks etdirən videoçarx nümayiş olunub.

Sonra yığma komandaların təntənəli keçidi başlayıb və əvvəlcə qaçqın atletlər komandası arenaya daxil olub.

Açılış mərasimində Azərbaycanın Paralimpiya yığmasının keçidi zamanı bayrağımızı Pekində keçirilmiş Paralimpiya Oyunlarının qalibi Oloxan Musayev aparıb. Ölkəmizin heyəti parada yaxalarında 44 günlük Vətən müharibəsinin simvoluna çevrilmiş xarıbülbül nişanı ilə çıxıb. Müharibə zəfərimizin rəmzi Paralimpiya zəfərlərimizin də müjdəçisinə çevrilib.

İdmançıların paradı ev sahibi ölkənin - Yaponiya paralimpiyaçılarının keçidi ilə başa çatıb.

Komandaların paradından sonra fiziki məhdudiyyətlərə baxmayaraq, insan ruhunun qarşılaşdığı bütün çətinlikləri aradan qaldırmağa qadir olduğunu əks etdirən kompozisiya nümayiş olunub.

"Tokio-2020"nin Təşkilat Komitəsinin sədri xanım Seyko Haşimoto çıxış edərək Yaponiya paytaxtının daha bir möhtəşəm tarix yazmağa - XVI Paralimpiya Oyunlarına ev sahibliyi etməyə tam hazır olduğunu bildirib. O, paralimpiyaçıları təbrik edib, onlara uğurlar arzulayıb. Bütün dünyanı ağuşuna alan koronavirus pandemiyası şəraitində Olimpiya və Paralimpiya Oyunlarının təşkilatçılarına minnətdarlığını bildirən Seyko Haşimoto bu yarışların insanlığın qarşılaşdığı bütün çətinlikləri aradan qaldırmağa qadir olduğunu nümayiş etdirəcəyini bildirib.

Beynəlxalq Paralimpiya Komitəsinin prezidenti Endrü Parsons çıxışında paralimpiyaçıların tükənməz qələbə əzmi ilə bütün maneələri, o cümlədən fiziki imkanlarının məhdudluğunu aşaraq parlaq nailiyyətlər qazanacaqlarına əminliyini bildirib.

Çıxışlardan sonra Yaponiya İmperatoru Naruhito XVI Paralimpiya Oyunlarını açıq elan edib.

Sonra səhnəyə Paralimpiya bayrağı gətirilib və Paralimpiya Oyunlarının himninin müşayiəti ilə ucaldılıb. İdmançılar, hakimlər və məşqçilər Paralimpiya andı içiblər.

Nəhayət, uzun səyahətdən sonra Böyük Britaniyadan gətirilən və Yaponiyanın müxtəlif prefekturalarından toplanan Paralimpiya məşəli Tokio Milli Olimpiya stadionuna çatdırılıb. Üç istiqamətdən günəş formasında yaradılmış məşələ yaxınlaşan Yaponiyanın tanınmış paralimpiyaçıları XVI Yay Paralimpiya Oyunlarının məşəlini alovlandırıblar. Açılış mərasimi möhtəşəm atəşfəşanlıqla başa çatıb.

Oyunların sentyabrın 5-də baş tutan bağlanış mərasimi də möhtəşəm olub.

Mərasim Paralimpiya Oyunlarının iştirakçılarının əyləşdiyi meydanda Yaponiyanın tanınmış estrada ulduzlarının təqdim etdiyi kompozisiya ilə başlayıb.

Yaponiyanın dövlət bayrağı paralimpiyaçılar tərəfindən meydana gətirilib. Özünümüdafiə qüvvələrinin qoşun növlərinin nümayəndələri dövlət himninin müşayiəti ilə dövlət bayrağını qaldırıblar.

Oyunların iştirakçısı olmuş dövlətlərin bayraqları hər bir ölkənin mükafat almış bir idmançısı tərəfindən meydana gətirilib. Paralimpiya bayrağından sonra meydana üçüncü daxil olan Azərbaycanın Dövlət Bayrağını XVI Paralimpiya Oyunlarının rekordçusu çempionu Lamiyə Vəliyeva aparıb.

İştirakçı ölkələrin bayraqlarının paradı atəşfəşanlıqla başa çatıb.

Daha sonra "I am possible" proqramının istifadəçilərinə və könüllülərə mükafatlar təqdim olunub.

Tokionun qubernatoru Koike Yuriko və Beynəlxalq Paralimpiya Komitəsinin prezidenti Endrü Parsonsun iştirakı ilə BPK-nın bayrağı endirilib.

Xanım Koike Yuriko Paralimpiya bayrağını BPK-nın prezidenti Endrü Parsonsa, o isə 2024-cü ildə növbəti Paralimpiadaya ev sahibliyi edəcək Paris şəhərinin meri Ann İdalqoya təqdim edib. Fransanın dövlət himni səsləndirilib. Fransa ilə qurulan birbaşa bağlantıda Paris sakinlərinin, idmançıların Paralimpiya estafetini qarşılamağa hazır olduqları əksini tapıb.

Mərasimdə çıxış edən "Tokio-2020"nin təşkilat komitəsinin sədri xanım Seyko Haşimoto və BPK-nın prezidenti Endrü Parsons Paralimpiadanın yüksək dostluq şəraitində keçdiyini, koronavirus pandemiyasına baxmayaraq, Tokionun yeni tarix yazdığını və yarışların uğurlu təşkil olunduğunu diqqətə çatdırıblar.

BPK prezidenti Endrü Parsons "Tokio-2020" XVI Yay Paralimpiya Oyunlarını bağlı elan edib.

# Yenilməzlərin zəfər yolu



*(Əvvəli 2-ci səhifədə)*

Finalda cüdoçumuz Özbəkistan təmsilçisi Parvina Samandarovanı məğlub edərək Azərbaycana yarışlarda dördüncü qızıl medalı qazandırdı.

Növbəti qızıl medala daha bir qadın cüdoçumuz Xanım Hüseynova (63 kq) sahib oldu. Təmsilçimiz startda yaponiyalı Hiroko Kudodan üstün oldu. Çinli Yue Vanqı da tatamidən məyus yola salan idmançımız finalda ukraynalı İrina Husiyevaya gərgin idman mübarizəsi şəraitində keçən görüşdə qalib gələrək Paralimpiya çempionu adını qazandı.



Növbəti zəfər xəbəri kişi cüdoçumuzdan gəldi. 81 kq çəki dərəcəsində çıxış edən Hüseyn Rəhimli ilk görüşdə Böyük Britaniya idmançısı Daniel Povelə qalib gələrək yarımfinala yüksəldi. Koreya Respublikasından olan Junq Min Lunu məğlub edən təmsilçimiz finalda özbəkistanlı Davurxon Karomatovdan üstün olaraq Paralimpiadada fəxri kürsünün ən yüksək pilləsinə qalxdı.




Zəfər gününün yekununu atletimiz Hamed Heydari vurdu. Nizə atma yarışlarında mübarizə aparan idmançımız 11 rəqibini qabaqlayaraq 51,42 xalla Paralimpiya çempionu oldu. Atletimiz, həmçinin dünya rekorduna da imza atdı. Əvvəllər dünya rekordu braziliyalı idmançı Sisero Valdiran Lins Npbreyə məxsus idi.

Beləliklə, Azərbaycan komandası 7 qızıl və 2 bürünc medalla mükafatçılar siyahısında 7-ci pilləyə yüksəldi.

Avqustun 29-nun ilk qızıl medal sorağı atletimiz Elvin Astanovdan gəldi. İdmançımız nüvə itələmə növündə bütün rəqiblərini qabaqlayaraq 8,77 metr nəticə ilə dünya rekordunu yenilədi.

Qadın cüdoçumuz Dürsədəf




Kərimova günün növbəti qızıl medalını gətirdi. 70 kq çəkidə çıxış edən idmançımız ukraynalı Anastasiya Harnik və Braziliya idmançısı Meq Emmeriçə qalib gələrək həlledici mərhələyə yüksəldi. Finalda Qazaxıstan təmsilçisi Zarina Baybatinanı ipponla məğlub edən D.Kərimova Paralimpiya çempionu oldu.

+100 kq çəki dərəcəsində çıxış edən cüdoçumuz İlham Zəkiyev Böyük Britaniya təmsilçisi Cek Hoksona qalib gəlsə də, dörddəbir finalda koreyalı Van-Gen Çoiyə məğlub oldu. Rəqib finala yüksəldiyi üçün İ.Zəkiyev təsəlliverici görüşə qatıldı. Yamaykalı Teador Subbaya qalib gələn idmançımız bürünc medal uğrunda görüşdə özbəkistanlı Şirin Şaripovla qarşılaşmalı idi. Ancaq rəqib əvvəlki görüşdə qadağan olunmuş fənd işlətdiyi üçün yarışdan kənarlaşdırıldı və İ.Zəkiyev texniki qələbə və bununla da bürünc medal qazandı. Beləliklə, "Afina-2004" və "Pekin-2008" Yay Paralimpiya oyunlarının qalibi, "London-2012"nin isə bürünc mükafatçısı karyerasında dördüncü Paralimpiya Oyunlarını da medalla başa vurdu.




Ümumiyyətlə, Tokio Paralimpiya Oyunlarının cüdo yarışlarının yekununda 6 qızıl və 2 bürünc medal qazanan Azərbaycan idmançıları böyük üstünlüklə ən yüksək nəticəyə malik oldular. İkinci nəticəyə malik Özbəkistan cüdoçularının hər əyarlı medaldan ikisi, üçüncü olan İran komandasının isə iki qızıl medalı var.

Günün digər yarışında Azərbaycan üzgüçüsü Raman Salein 50 metr məsafəyə sərbəst üsulla üzgüçülük yarışlarının təsnifat mərhələsində 23,98 saniyəlik nəticə ilə üçüncü olaraq həlledici mərhələyə adladı. Finalda məsafəni 23,85 saniyəyə qət edən R.Saleh finişə dördüncü çatdı.

Pauerliftinqçi Nurlan Babacanov 97 kq çəki dərəcəsində 185 kq ağırlıq qaldıraraq yarışı 7-ci sırada başa vurdu. Cüdoçu Kənan Abdullaxanlı 100 kq çəki dərəcəsində ilk görüşündə özbəkistanlı rəqibinə məğlub olaraq mübarizəni dayandırdı. Atletimiz Elmir Cəbrayılov isə 100 metr məsafəyə qaçış yarışlarının təsnifat mərhələsində ayağında olan zədə səbəbindən mübarizəni dayandırdı.

Beləliklə, hesabında 9 qızıl və 3 bürünc medal olan Azərbaycanın komandası 6-cı pilləyə yüksəldi.

Avqustun 30-da komandamızın tək medalını atlet Səid Nəcəfzadə bürünc əyarında qazandı. Təmsilçimiz uzunluğa tullanma yarışlarında 7,03 metrlik nəticə göstərdi. Digər idmançımız Kamil Əliyev eyni yarışı 6,89 metr nəticə ilə beşinci pillədə başa vurdu.

Digər atletimiz Oloxan Musayev disk atma yarışlarında 37,92 metr nəticə ilə yeddinci oldu.

İki pauerliftinqçimiz - 107 kq çəki dərəcəsində Elşən Hüseynov, +107 kq çəkidə isə Şamo Aslanov yarışı 8-ci pillədə başa vurdu.

Avqustun 31-i komandamız üçün 1 qızıl və 1 gümüş medalla əlamətdar oldu. Üzgüçümüz Raman Salein 100 metr məsafəyə sərbəst üsulla üzgüçülük yarışlarının təsnifat mərhələsində 53,89 saniyə nəticə göstərərək həlledici mərhələyə yüksəldi. Finalda məsafəni 52,69 saniyəyə qət edən R.Salei ikinci dəfə "Tokio-2020"nin qalibi oldu.

Atletlərin 100 metr məsafəyə qaçış yarışında ölkəmizi 3 idmançı təmsil edirdi. Təsnifatda Lamiyə Vəliyeva 12,09, Yelena Çebanu 12,06, Yulia Yanovskaya isə 12,41 saniyə göstərici ilə finala adladılar. Beləliklə, atletikanın şah növü olan 100 metr məsafəyə qaçış yarışında final cığırına çıxan 8 idmançıdan 3-ü Azərbyacan təmsilçisi oldu. Lamiyə Vəliyeva 11,99 saniyə nəticə ilə finiş xəttini ikinci keçdi. O, yarışın ispaniyalı qalibi Fornerio İqlesiasdan cəmi 0,03 saniyə geri qaldı. Yuliya Yanovskaya 4-cü (12,30), Yelena Çebanu isə 7-ci (12,41) nəticə göstərdi.

Güllə atıcılarının yarışında Yelena Taranova və Kamran Zeynalov 10 metr məsafədən atış yarışlarında təsnifat mərhələsini keçə bilmədilər. Y.Taranova 538 xalla təsnifat mərhələsində 16-cı oldu. K.Zeynalov isə təsnifat mərhələsini 543 xalla 23-cü pillədə başa vurdu.

Sentyabrın ilk günündə üzgüçümüz Vəli İsrafilov Azərbaycana 11-ci qızıl medalı qazandırdı. O, 100 metr məsafəyə brass üsulu ilə üzmədə məsafəni 1 dəqiqə 04,86 saniyəyə qət edərək bütün rəqiblərini qabaqladı və Paralimpiya çempionu oldu. Təmsilçimiz, həmçinin bu nəticə ilə Paralimpiya rekordu müəyyənləşdirdi. V.İsrafilov bu uğura 18 yaş 325 günlüyündə nail oldu və bununla da ölkəmizin ən gənc Paralimpiya çempionu kimi Azərbaycanın idman tarixinə düşdü.




Həmin gün digər üzgüçümüz Dana Şandıbina 100 metr məsafəyə brass üsulla yarışda təsnifat mərhələsində 1 dəqiqə 24 saniyəlik nəticə göstərərək beşinci oldu və finala adlaya bilmədi.

Atletika yarışlarında isə 400 metr məsafəyə qaçışda Elmi Cəbrayılov 52,17 saniyə nəticə ilə öz qrupunda 6-cı olaraq yarışı medalsız başa vurdu.

*(Ardı 4-cü səhifədə)*

| | Ölkə | Q | G | B | Cəm |
|---|---|---|---|---|---|
| 1 | Çin | 96 | 60 | 51 | 207 |
| 2 | B.Britaniya | 41 | 38 | 45 | 124 |
| 3 | ABŞ | 37 | 36 | 31 | 104 |
| 4 | Rusiya PK | 36 | 33 | 49 | 118 |
| 5 | Niderland | 25 | 17 | 17 | 59 |
| 6 | Ukrayna | 24 | 47 | 27 | 98 |
| 7 | Braziliya | 22 | 20 | 30 | 72 |
| 8 | Avstraliya | 21 | 29 | 30 | 80 |
| 9 | İtaliya | 14 | 29 | 26 | 69 |
| 10 | **Azərbaycan** | 14 | 1 | 4 | 19 |
| 11 | Yaponiya | 13 | 15 | 23 | 51 |
| 12 | Almaniya | 13 | 12 | 18 | 43 |
| 13 | İran | 12 | 11 | 1 | 24 |
| 14 | Fransa | 11 | 15 | 28 | 54 |
| 15 | İspaniya | 9 | 19 | 12 | 36 |
| 16 | Özbəkistan | 8 | 5 | 6 | 19 |
| 17 | Polşa | 7 | 6 | 12 | 25 |
| 18 | Macarıstan | 7 | 5 | 4 | 16 |
| 19 | İsveçrə | 7 | 4 | 3 | 14 |
| 20 | Meksika | 7 | 2 | 13 | 22 |
| 21 | Y.Zelandiya | 6 | 3 | 3 | 12 |
| 22 | İsrail | 6 | 2 | 1 | 9 |
| 23 | Kanada | 5 | 10 | 6 | 21 |
| 24 | Hindistan | 5 | 8 | 6 | 19 |
| 25 | Tailand | 5 | 5 | 8 | 18 |
| 26 | Slovakiya | 5 | 2 | 4 | 11 |
| 27 | Belarus | 5 | 1 | 1 | 7 |
| 28 | Tunis | 4 | 5 | 2 | 11 |
| 29 | Əlcəzair | 4 | 4 | 4 | 12 |
| 30 | Mərakeş | 4 | 4 | 3 | 11 |
| 31 | Belçika | 4 | 3 | 8 | 15 |
| 32 | İrlandiya | 4 | 2 | 1 | 7 |
| 33 | Nigeriya | 4 | 1 | 5 | 10 |
| 34 | CAR | 4 | 1 | 2 | 7 |
| 35 | Kuba | 4 | 1 | 1 | 6 |
| 36 | İordaniya | 4 | 0 | 1 | 5 |
| 37 | Kolumbiya | 3 | 7 | 14 | 24 |
| 38 | Venesuela | 3 | 2 | 2 | 7 |
| 39 | Malayziya | 3 | 2 | 0 | 5 |
| 40 | Danimarka | 3 | 1 | 1 | 5 |
| 41 | Koreya | 2 | 10 | 12 | 24 |
| 42 | Türkiyə | 2 | 4 | 9 | 15 |
| 42 | İndoneziya | 2 | 3 | 4 | 9 |
| 44 | Çex Resp. | 2 | 3 | 3 | 8 |
| 45 | Çili | 2 | 3 | 1 | 6 |
| 45 | Serbiya | 2 | 3 | 1 | 6 |
| 47 | Norveç | 2 | 0 | 2 | 4 |
| 48 | Sinqapur | 2 | 0 | 0 | 2 |
| 49 | Avstriya | 1 | 5 | 3 | 9 |
| 50 | İsveç | 1 | 5 | 2 | 8 |
| 51 | Yunanıstan | 1 | 3 | 7 | 11 |
| 52 | Finlandiya | 1 | 3 | 1 | 5 |
| 52 | Qazaxıstan | 1 | 3 | 1 | 5 |
| 54 | BƏƏ | 1 | 1 | 1 | 3 |
| 55 | Kosta Rika | 1 | 1 | 0 | 2 |
| 56 | Ekvador | 1 | 0 | 2 | 3 |
| 57 | Kipr | 1 | 0 | 1 | 2 |
| 57 | Şrilanka | 1 | 0 | 1 | 2 |
| 59 | Efiopiya | 1 | 0 | 0 | 1 |
| 59 | Monqolustan | 1 | 0 | 0 | 1 |
| 59 | Pakistan | 1 | 0 | 0 | 1 |
| 59 | Peru | 1 | 0 | 0 | 1 |
| 63 | Argentina | 0 | 5 | 4 | 9 |
| 64 | Misir | 0 | 5 | 2 | 7 |
| 65 | Xorvatiya | 0 | 3 | 4 | 7 |
| 66 | Latviya | 0 | 3 | 2 | 5 |
| 67 | Gürcüstan | 0 | 3 | 0 | 3 |
| 68 | Honq Konq, Çin | 0 | 2 | 3 | 5 |
| 69 | Bolqarıstan | 0 | 2 | 0 | 2 |
| 70 | İraq | 0 | 1 | 2 | 3 |
| 71 | Küveyt | 0 | 1 | 1 | 2 |
| 71 | Namibiya | 0 | 1 | 1 | 2 |
| 71 | Rumıniya | 0 | 1 | 1 | 2 |
| 71 | Sloveniya | 0 | 1 | 1 | 2 |
| 75 | Vyetnam | 0 | 1 | 0 | 1 |
| 76 | Litva | 0 | 0 | 3 | 3 |
| 77 | Portuqaliya | 0 | 0 | 2 | 2 |
| 78 | Bosniya və Hers. | 0 | 0 | 1 | 1 |
| 78 | Çin Taypeyi | 0 | 0 | 1 | 1 |
| 78 | Salvador | 0 | 0 | 1 | 1 |
| 78 | Keniya | 0 | 0 | 1 | 1 |
| 78 | Monte Neqro | 0 | 0 | 1 | 1 |
| 78 | Oman | 0 | 0 | 1 | 1 |
| 78 | Qətər | 0 | 0 | 1 | 1 |
| 78 | S.Ərəbistanı | 0 | 0 | 1 | 1 |
| 78 | Uqanda | 0 | 0 | 1 | 1 |

# Yenilməzlərin zəfər yolu

*(Əvvəli 3-cü səhifədə)*

Sentyabrın 2-də idmançılarımızdan medal qazanan olmadı. Taekvondo yarışlarında Röyalə Fətəliyeva (49 kq) ilk görüşündə tailandlı Xvansuda Phuangkitçaya məğlub olsa da, təsəlliverici görüşdə iştirak hüququ qazandı. İlk təsəlliverici görüşdə Hindistan paralimpiyaçısı Arunanı üstələyən Röya, ikinci təsəlliverici görüşdə ukraynalı V.Marçuka məğlub olaraq mübarizənu dayandırdı.

61 kq çəki dərəcəsində çıxış edən taekvondoçumuz İmaməddin Xəlilov startda Rusiya Paralimpiya Komitəsinin təmsilçisi Daniil Sidorova uduzdu. İlk təsəlliverici görüşdə yaponiyalı Mitsuya Tanakaya qalib gələn idmançımız ikinci təsəlliverici görüşdə fransalı B.Konqa uduzaraq çıxışını dayandırdı.

Güllə atıcısı Yelena Taranova 25 metr məsafədən atəş açma yarışının təsnifat mərhələsində 516 xal toplayaraq 29-cu oldu və həlledici mərhələyə yüksələ bilmədi.

İki atletimiz - Lamiyə Vəliyeva və Yulia Yanovskaya 400 metr məsafəyə qaçış yarışının təsnifat mərhələsində güclərini sınadılar. Məsafəni 55,71 saniyəyə qət edən Lamiyə öz qrupunda ikinci oldu. Yuliya da 56,55 saniyə nəticə ilə öz qrupunda finişə ikinci çatdı. Hər iki idmançımız həlledici mərhələyə vəsiqə qazandı.

Komandamızın digər üzvü, paraatlet Orxan Qasımov nizə atma yarışında 58,96 metr nəticə ilə beşinci yerdə qərarlaşdı.

Sentyabrın 3-ü üzgüçümüz Raman Salei üçün üçüncü Tokio "qızıl"ı ilə əlamətdar oldu. 100 metr məsafəyə batterflyay yarışının təsnifat mərhələsini 58,99 saniyəlik göstərici ilə ilk pillədə adlayan idmançımız finalda məsafəni 57,81 saniyəyə qət edərək üçüncü dəfə "Tokio-2020"nin qalibi oldu.

R.Salei ilə eyni təsnifat mərhələsində 1:10,59 nəticə ilə qrupda 5-ci olan Vəli İsrafilov finala adlaya bilmədi və mübarizəni dayandırdı.

Taekvondoçumuz Əbülfəz Abuzərli 75 kq çəki dərəcəsində ilk görüşündə filippinli A.Qanapinə qalib gələrək, 1/4 final mərhələsinə vəsiqə qazandı.



Bu mərhələdə meksikalı rəqibi Qarsiya Lopesə məğlub olan idmançımız ilk təsəlliverici görüşdə ukraynalı A.Şvetsə qalib gəlsə də, ikinci təsəlliverici görüşdə koreyalı J.H. Jooya məğlub olub mübarizəni dayandırdı.

Atletimiz Samir Nəbiyev kürə itələmə yarışlarında 13,12 metr nəticə göstərərək yarışı 7-ci pillədə tamamladı.

İki gün öncə 400 metr məsafəyə qaçıda təsnifat yarışını uğurla adlamış atletimiz Lamiyə Vəliyeva sentyabrın 4-də finalda 55 saniyə nəticə ilə bütün rəqiblərini qabaqlayaraq yeni Paralimpiya rekordu ilə qızıl medala sahib oldu. Digər idmançımız Yuliya Yanovskaya 57,18 saniyə nəticə ilə yarışı beşinci pillədə tamamladı.

Paralimpiyaçılarımızın Tokioda medal yürüşünə atletimiz Orxan Aslanov uzunluğa tullanma yarışında yekun vurdu. İdmançımız 7,36 metrlik nəticə ilə fəxri kürsünün ən yüksək pilləsinə qalxaraq Azərbaycana "Tokio-2020" XVI Yay Paralimpiya Oyunlarında 14-cü qızıl medalı qazandırdı.

Güllə atıcılarının 50 metrdən atəş açma yarışında təsnifatda Orxan Zeynalov 518 xalla 20-ci, Yelena Taranova isə 503 xalla 29-cu olaraq finala adlaya bilmədilər.

Beləliklə, paralimpiyaçılarımızın Tokioda möhtəşəm çıxışları, yenilməzlərin zəfər yolu 14 qızıl, 1 gümüş və 4 bürünc medalla zirvə nöqtəsinə çatdı. Komandamız bu nəticə ilə oyunların 10-cu pillədə başa vurdu.

***Vüqar İNQİLABOĞLU***




# Azərbaycan şahmatçısı dünya kubokunu qazanıb



*Azərbaycan şahmatçısı Gövhər Beydullayeva dünya kuboku yarışının qalibi olub.*

18 yaşlı qızların turnirində böyük əzmkarlıqla mübarizə aparan şahmatçımız finalda Gürcüstan təmsilçisi Tamari Esadze üzərində qələbə qazanıb. Şahmatçımız dünya kubokunun qalibi olmaqla dekabrın 18-24-də keçiriləcək super finala vəsiqəni təmin edib.

Hər yaş qrupunda super finalda 6 şahmatçı - dünya kubokunda ilk üç yeri tutanlar, noyabrda keçiriləcək Qran-Pri seriyasında ilk iki yerin sahibləri və müvafiq yaş qrupunda ən yüksək əmsala malik şahmatçı iştirak edəcək. 16 yaşlı oğlanların yarışında mübarizəni dörddəbir finala qədər davam etdirə bilən Xəzər Babazadə də noyabrda keçiriləcək Qran-Pri seriyasında iştirak hüququ qazanıb.

# Voleybol federasiyaları arasında əməkdaşlıq məsələləri müzakirə olunub

Azərbaycan Voleybol Federasiyasının (AVF) baş katibi, Avropa Voleybol Konfederasiyasının (CEV) İdarə Heyətinin üzvü Cəlil Cəfərov Serbiya Voleybol Federasiyasının prezidenti Zoran Qayiç və CEV nümayəndə heyəti ilə görüşüb.

Belqradda keçirilən görüşdə Azərbaycanın və Serbiyanın Voleybol federasiyaları arasındakı dostluq münasibətinin daha da möhkəmlənməsi və qarşıda duran planlardan danışılıb.



# Dünya Fudokan Federasiyasının prezidenti ilə görüş keçirilib

***Avqustun 31-də Dünya Fudokan Federasiyasının (DFF) prezidenti və qurucusu, 10-cu dan qara kəmər sahibi İlya Yorqa ilə Gənclər və İdman Nazirliyində görüş keçirilib.***

Görüşdə gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov, nazirliyin idman şöbəsinin müdiri, Olimpiya çempionu Fərid Mansurov, Bakı Karate-do Akademiyasının prezidenti, DFF-in Azərbaycanda rəsmi və səlahiyyətli nümayəndəsi Vüsal Abdullazadə və federasiyanın nümayəndə heyəti iştirak ediblər.

Söhbət zamanı fudokan idman növünün ölkəmizdə inkişafı ilə bağlı bir sıra məsələlər müzakirə edilib və işgüzar məsləhətləşmələr aparılıb.

İ.Yorqa İ.İsmayılova Dünya Fudokan Federasiyasının fəxri diplomunu təqdim edib. Görüşdə qonaqlara Gənclər və İdman Nazirliyi adından xatirə hədiyyələri verilib.

# Taekvondoçularımız Avropa çempionatında 7 medal qazanıblar



***Estoniyanın paytaxtı Tallinndə taekvondo üzrə Avropa birinciliyi keçirilib. Uşaq, yeniyetmə və 21 yaşadək idmançılar arasında təşkil olunan qitə birinciliyində milli komandamızın üzvləri də qüvvələrini sınayıblar.***

İyirmi bir yaşadək idmançılardan ibarət millimizin baş məşqçisi Ələkbər İmaməliyev və qızların baş məşqçisi Rəşad Məmmədovun rəhbərliyi ilə oğlanlar arasında Bəhruz Quluzadə, Səyyad Dadaşov (hər ikisi 54 kq), Pərviz İsgəndərov (58 kq), Xanoğlan Kərimov (63 kq), Cavad Ağayev, Yaşar Məmmədli (hər ikisi 68 kq), Eltac Qafarov (80 kq), Taleh Süleymanov (87 kq), qızlardan isə Minayə Əkbərova (46 kq) və Aysel Xudaverdiyeva (53 kq) mübarizə aparıblar.

Yeniyetmələrdən ibarət millimizin baş məşqçisi Səbuhi Zülfüqarov və böyük məşqçisi Sənan Həşimovun yetirmələrindən isə İlyas Hətəmli (33 kq), Məhəmməd Həsənli (37 kq), Harun Salamazadə (41 kq), Vasif Səlimov (45 kq), Bahadur Dostuyev (49 kq), İslam Əhmədzadə (53 kq), Hüseyn Xudiyev (65 kq), Zəhra İsayeva (29 kq), Xuraman Cavadzadə (33 kq), Fatimə İsmayılzadə (37 kq), Şəms Əlizadə (44 kq), Nərgiz Kazımova (47 kq) və Aişə Ağamirzəzadə (51 kq) güclərini sınayıblar.

İlk yarış günündə yeniyetmələr arasında keçirilən yarışda millimizin üzvlərindən 65 kq çəki dərəcəsində mübarizə aparan Hüseyn Xudiyev Kosova və Belarus təmsilçilərinə üstələyərək finala yüksəlib. Finalda isə Ukrayna təmsilçisinə məğlub olaraq yarışın gümüş medalını qazanıb.

Digər yeniyetmə taekvondoçumuz Zəhra İsayeva (29 kq) serbiyalı idmançıya qalib gəlsə də, yarımfinalda macarıstanlı rəqibinə məğlub olaraq yarışı bürünc medalla başa vurub.

İkinci yarış günündə yeniyetmələrdən ibarət millimizin daha iki üzvü medal qazanıb. Belə ki, Məhəmməd Həsənli (37 kq) Bolqarıstan, Rusiya, İspaniya və Serbiya təmsilçiləri üzərində inamlı qələbə qazanaraq fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Millimizin digər üzvü İlyas Hətəmli (33 kq) isə serbiyalı və ispaniyalı rəqiblərinə qalib gəlsə də, yarımfinalda ukraynalı idmançıya məğlub olaraq bürünc medalla kifayətlənib.

Avropa birinciliyinin son yarış günündə yeniyetmə taekvondoçularımız aktivlərinə daha 3 gümüş medal əlavə ediblər. Belə ki, milli komandamızın üzvləri Vasif Səlimov (45 kq), İslam Əhmədzadə (53 kq) və Nərgiz Kazımova (47 kq) yarışda ikinci yeri tutublar.

Qeyd edək ki, kiçikyaşlı yeniyetmə idmançılarımızın çıxışları da uğurla nəticələnib. Belə ki, Çingiz Həsənov (36 kq) qızıl, Sabir Məmmədli (27 kq) gümüş medal qazanıblar.

# Kazanda I MDB Oyunları start götürüb



***Sentyabrın 4-də Kazanda I MDB Oyunlarının təntənəli açılış mərasimi keçirilib. Açılışdan öncə, Oyunlara həsr olunmuş mətbuat konfransı təşkil edilib.***

MDB İcraiyyə Komitəsi sədrinin I müavini Leonid Anfimov çıxışında ilk Oyunları tarixi hadisə adlandırıb. Rusiyanın gənclər və idman nazirinin müavini Aleksey Morozov 1010 idmançının iştirak etdiyi Oyunlara çoxdan hazırlaşdıqlarını bildirib.

Rusiya Dumasının deputatı Olqa Pavlova 9 sentyabrda Rusiyanın sədrliyi ilə MDB ölkələrinin İdman Şurasının iclasının təşkil olunacağını və toplantıda mühüm məsələlərin müzakirə olunacağını diqqətə çatdırıb.

Mətbuat konfransından sonra açılış mərasimi keçirilib. Tədbir 9 iştirakçı ölkənin paradı ilə başlayıb. Qeyd edək ki, Türkmənistan son anda yarışlara qoşulmaqdan imtina edib.

Əvvəlcə, Azərbaycan nümayəndələri səhnəyə çıxıb. Milli musiqinin sədaları altında tədbir iştirakçılarını heyətin bayraqdarı yunan-Roma güləşi üzrə yeniyetmələr arasında dünya çempionu və artıq MDB Oyunlarında qızıl medal qazanmış yunan-Roma güləşçisi Həsrət Cəfərov (67 kq) salamlayıb. Daha sonra qalan ölkələr meydana daxil olublar.

Ardınca rəsmi hissə start götürüb. Rusiya Federasiyasının prezidenti Vladimir Putinin müraciəti oxunduqdan sonra Tatarıstan Respublikasının prezidenti Rüstəm Minnixanov yarış iştirakçılarını salamlayıb.

MDB İcraiyyə Komitəsi sədrinin birinci müavini Leonid Anfimov Tokio-2020 Yay Olimpiya Oyunlarındakı nəticələri təhlil etdiklərini diqqətə çatdırıb və Oyunları açıq elan edib. Sonda Rusiyanın dövlət himni səsləndirilib.

# Azərbaycan idmançıları I MDB Oyunlarında uğurla çıxış edirlər

*(Əvvəli 1-ci səhifədə)*

Güləşçilərimiz Nihad Quluzadə (55 kq), Həsrət Cəfərov (67 kq) və Sərxan Məmmədov (130 kq) bütün rəqiblərinə qalib gələrək Oyunların qalibi adını qazanıblar. Qurban Qurbanov (72 kq) ikinci, Nihat Məmmədli (60 kq) və Laçın Vəliyev (87 kq) isə üçüncü yeri tutublar.





Xanım boksçularımız isə mübarizəyə yarımfinaldan qoşulublar. Yarışın üçüncü günündə Aysu İsmayılova (48 kq), İsgəndər Qızbəs (57 kq) və Emili Rzayevanın (63 kq) bürünc medal qazanması rəsmilə-



şib. Bundan əlavə, kişi boksçular Tağı Nəsibov (48 kq) və İbrahim Zeynalov (50 kq) da bürünc medala sahib çıxıblar.

Sərbəst güləşçilərin mübarizəsində Əşrəf Aşırov (79 kq), Abubakr Abakarov (86 kq), Osman Nurməhəmmədov (92 kq) qızıl, İslam İlyasov (97 kq), Aydın Əhmədov (125 kq) gümüş, Əliabbas Rzazadə (57 kq), Sabir Cəfərov (65 kq) bürünc medal qazanıblar.

Qadın güləşçilərin mübarizəsində isə Tatyana Voronsova (53 kq), Birgül Sultanova (65 kq) bürünc, Şahanə Nəzərova (50 kq) gümüş medallara sahib olublar.

Yarışın üçüncü günündə Azərbaycan təmsilçiləri 3 növdə mübarizə aparıblar. Sentyabrın 5-də keçirilən kəmər güləşi yarışlarında idmançımız Sənubər Nəbiyeva 66 kq çəki dərəcəsində 3-cü yeri tutaraq bürünc medala layiq görülüb.

Sentyabrın 5-də I MDB Oyunlarında tayboksçularımız da mübarizəyə qoşulublar. 63.5 kq çəki dərəcəsində təmsilçimiz Məhər Əsədzadə ilk görüşdə Ermənistan idmançısı Alen İsraelyan üzərində parlaq qələbə qazanıb. İlk dəqiqələrdən erməni idmançıya güclü zərbələr endirən Məhəd Əsədzadəyə qələbə üçün cəmi 2 dəqiqə 36 saniyə lazım olub. Rəqibi nokauta salan azərbaycanlı idmançı vaxtından əvvəl təmiz qələbə qazanaraq növbəti mərhələyə yüksəlib.

Ertəsi gün keçirilən görüşlərdə tayboksçularımızdan Mari Sayer Leyanna (51 kq), Əli Əliyev (60 kq) və Revan Agazade (67 kq) təsnifat yarışlarına qələbə ilə başlayıblar. Tayboks yarışlarında mübarizə bu gün də davam edəcək və sabah qaliblər məlum olacaq.

Dünən stend atıcılığı yarışlarına da start verilib. Dairəvi stend üzrə ilk gün təsnifat mərhələsini Cavid Həsənov 1-ci yerdə tamamlayıb. Təsnifat mərhələsinin davamı bu gün keçiriləcək.

Koreş yarışlarının mütləq çəki dərəcəsində Camal Feyziyev də mübarizəyə qələbə ilə başlayıb. Bütün rəqiblərini məğlub edən idmançımız finalda özbək İlesbek Obijonovu məğlub edərək qızıl medala layiq görülüb.

Bu növdə daha iki idmançımız günü medalla başa vurub.



Belə ki, 60 kq çəki dərəcəsində Elvar Nəhmətzadə bürünc, 85 kq çəkidə isə Əlisəftar Məmmədli gümüş medal qazanıblar.

Basketbol yarışlarında isə yığma komandamız öz qrupunda Qırğızıstana 16:10 hesabı ilə qalib gəlib. Belarusa isə (12:20) məğlub olub.Yarımfinalda ev sahiblərinə 17:21 hesabı ilə uduzan idmançılarımız bürünc medal uğrunda özbək basketbolçuları ilə qarşılaşıblar. Gərgin keçən qarşılaşmada 14:13 hesabı ilə qalib gələn komandamız bürünc medal qazanıb. Qeyd edək ki, 3x3 basketbol komandamızın şərəfini Əkbər Məmmədov, Endər Poladxanlı, Cəbrayıl Əkbərov və Mert İlhan qoruyurdular.

Bununla da, Azərbaycanın bu günədək qazandığı medalların sayı 26-ya yüksəlib. Bunlardan 7 qızıl, 5 gümüş və 14 bürüncdür.

Qarşıdakı günlərdə idmançılarımız cüdo, sambo, stolüstü tennis, karate və futzal yarışlarında mübarizəyə qoşulacaqlar.



# "Araz" tarixinin 16-cı əsas yarışında

***Futzal klublarının Avropa Çempionlar liqasının ilkin mərhələsinin "D" qrupunun oyunlarını Latviyanın Salaspils şəhərində keçirən "Araz" son matçda yerli "Raba"ya 8:4 hesabı ilə (qollar - Maneka, 0: 24, 32:20, Felipinyu, 18:16, Bağırov, 22:30, 32:40, Atayev, 23:33, Çovdarov, 26:00-pen., 29:37) qalib gəlib.***

Lakin Finlandiya "Kampuksen Dinamo"su Cəbəllütariq "Europa"sına daha böyük hesabla (14:3) qalib gəldiyindən eyni xallı komandalar arasından məhz o, qalib kimi növbəti mərhələyə birinci vəsiqəni əldə edib. Lakin "Araz" da bu mərhələdə ən yaxşı nəticə göstərən ikinci yer sahiblərindən biri kimi növbəti mərhələyə adlayıb.

Beləliklə, "Araz" tarixində 16-cı dəfə əsas mərhələyə vəsiqə alaraq, bu hüquqa nail olanlar arasında yalnız Almatı "Kayrat"ından (18 dəfə) geri qalır.

Ümumiyyətlə, bu mərhələ Azərbaycan futzalı üçün əlamətdar olub. Rizvan Fərzəliyev hər 3 oyunda meydançaya çıxaraq, 69 oyunda qitə səviyyəli futzal matçına çıxmış Lüsiunun ("Əkşn-21" Şarlerua, "İberia Star" Tbilisi, "FT Şarlerua") rekorduna şərik çıxıb. Rizvan növbəti oyuna çıxacağı təqdirdə turnirin ən çox oyun keçirən oyunçusu olacaq. Yeri gəlmişkən, bu siyahıda Vitali Borisov 57 oyunla 7-cidir.

"Araz" oktyabrın 26-dan 31-dək Ukraynanın İvano-Frankovsk şəhərində mübarizəyə qoşulacaq. Burada onun rəqibləri arasında ev sahibi "Uraqan", həmçinin Rumıniya "Yunayted Qalati"si və Kosovo "Liçeni"si olacaq. Elit raunda yalnız qrup qalibləri çıxır. Mübarizə 8 qrupda keçiriləcək.

# Velosiped idman növü üzrə "Zəfər kuboku" turnirinin qalibləri müəyyənləşib

Avqustun 31-də Gənclər və İdman Nazirliyi, Azərbaycan Velosiped İdmanı Federasiyası, Respublika Olimpiya Velosiped Məktəbi, Azərbaycan İdman Jurnalistləri Federasiyası, "Gənc velosipedçilər" İctimai Birliyi, "Azərbaycan Əlil Velosipedçilərə Dəstək" İctimai Birliyi və "BrendSport.az" saytının təşkilatçılığı ilə 44 günlük Vətən müharibəsində qazandığımız böyük zəfərə həsr edilmiş "İlhamlı Qələbələr" adlı idman festivalı çərçivəsində jurnalistlər və tanınmış incəsənət nümayəndələri arasında velosiped idman növü üzrə "Zəfər kuboku" keçirilib.

Tədbirin açılış mərasimində Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Xəzər İsayev, Azərbaycan Velosiped İdmanı Federasiyasının baş katibi Fərhad Əliyev və digərləri çıxış ediblər. Gərgin və maraqlı keçən yarışın yekun nəticələrinə görə, kişilər arasında birinci yeri "Space" TV-nin əməkdaşı Kamran Məmmədov tutub. İkinci yerə "Baku" TV-nin əməkdaşı Zaur Hacıyev layiq görülüb.



Üçüncü pillədə isə "Trend" İnformasiya Agentliyinin əməkdaşı Elgün Mənsimov qərarlaşıb.

Qadınlar arasında isə "Sehrli dünya" uşaq jurnalının əməkdaşları Aynur Nurəliyeva, Gülzar İbrahimova, "Uğurcan" Nitq İnkişaf Mərkəzinin təmsilçisi Günay Ağazadə ilk 3 yerə sahib oldular.

Paravelosipedçilərdən isə Mehman Ramazanzadə, Bəhlul Əliyev və Amid Həsənquliyev mükafatalayiq yerlər tutublar.

# Avrokuboklar: Yalnız "Qarabağ"la



*Milli futbol çempionatında uzun həsrətə son qoyaraq çempionluğun ağlı günlərini Avrokubokların təsnifat yarışlarının qaralı günlərinə dəyişən "Neftçi"dən fərqli olaraq, "Qarabağ" ölkəmizi dalbadal 8-ci dəfə əsas mərhələlərdən birincisində təmsil edəcək.*

"Neftçi"dən heç söz açmağa dəyməz, komanda sanki tarixində ilk dəfə zirvəyə çıxırmış kimi, şadlığına şitlik edib, heyətinə düzəməlli əl gəzdirmək fikrindən də uzaq olmaqla, Azərbaycan futboluna ən ağır zərbələrdən birini qəfil vurdu. Nə qədər qəribə olsa da, sükançısının açıqdan-açığa transfer hayqırtısının nadan idarəetmə xəlitəsinə işarə olmasına rəğmən klub heç nə olmamış kimi, adının kölgəsinə qısılıb yoluna davam edir. Halbuki "xalqın komandası", "bayraqdar", "flaqman" kimi anlayışlara yaxınlığını belə unutmuş bir nəsil formalaşdıran, tarixinin yadlaşmış ünsürünə çevrilən, ənənələrini yadırğamış klub üçün artıq düşünməyə də vaxt qalmayıb. Bilirsiniz niyə? UEFA-nın Konfrans liqası kimi bir yarış formatı təsis etməsi "Neftçi" kimi cılız çempionlar üçün də tarixi şans yaradıb. Bir balaca təpəri olan milli futbol mövsümünün qalibi qrup turnirinə çıxmaqla əldə edəcəyi milyonlarla avro vəsait hesabına inkişaf planı cızmaq fürsəti qazanır. Amma hər pislikdə də yaxşı bir şey axtarmağa dəyər. Müvəqqəti planlama qura bilməyən "Neftçi" kimi çempionun elə yarı yolda qalması yaxşıdır. Çünki bununla milli futbol növbəti ağır zərbədən qurtulmuş oldu. Bu klubun da "Sumqayıt" və "Keşlə"dən də betər rüsvayçılığı futbolumuza onsuz da ən azı reytinq zərbəsi vurub və indi "Qarabağ" təkbaşına bu üçünün əvəzinə xallar toplamalıdır.

"Qarabağ" bu dəfə qitənin üçüncü dərəcəli klub yarışı formatında qrupa düşməklə tarixi fürsəti layiqincə dəyərləndirə bilər. Ötən illərdə Ağdam klubu daim transferlərdə alayarımçıqlığı ilə tənqid atəşinə tutulurdu. Ya səhvlərdən nəticə çıxarılıb, ya da komanda, axır ki, futbolun əsl iqtisadi-təsərrüfat anlayışını mənimsəyərək sistemli və planlı addımlar atmağa başlayıb. Hətta budəfəki transferlərdə Almeyda kimi geri dönüşləri məqbul saymaq olar. Çünki yeni heyətin formalaşmasında bu qayıdışın özünəməxsus birləşdirici yeri olacaq. İndi "Qarabağ" irəli növbəti addımlarını atmalıdır. Komandanın hələ dəfələrlə qeyd edəcəyimiz növbəti vəzifəsi yerli markalı kadr ehtiyatına diqqət yetirməsi olacaq. Vaxtilə öz məktəbinə diqqət ayıran komanda sonra bu sahəni unutsa da, deyəsən, artıq təpərin elə buradan başladığını anlayıb.

*(Ardı 8-ci səhifədə)*

**Konfrans liqası. Pley-off mərhələsi. Cavab qarşılaşmaları**

***"Aberdin" (Şotlandiya) - "Qarabağ" (Azərbaycan) 1:3 (0:2)***

**İLK OYUN** - 0:1

**26 avqust.** Aberdin. "Pittodri" stadionu.

**Hakimlər:** Harald Lexner - Andreas Haydenrayx, Maksimilian Kolbitş - Yulian Vaynberger (Avstriya).

**Qol:**Ferguson 90+2-pen.//T.Bayramov, 8, Kadı, 18, Zubir, 72.

**Sarı vərəqə:** Makkenzi, 32, Oco, 58, Fergüson, 61, Braun, 64//Kadı, 25, İbrahimli, 47.

**"Qarabağ":** Şahruddin Məhəmmədəliyev, Maksim Medvedev (kap.), Kevin Medina (Bəhlul Mustafazadə, 87), Abbas Hüseynov, Toral Bayramov, Qara Qarayev (Riçard Almeyda, 86), İsmayıl İbrahimli, Kadı (Filip Ozobiç, 74), Xayme Romero (Marko Veşoviç, 82), Abdulla Zubir, Ramil Şeydayev (Musa Qurbanlı, 81). **Baş məşqçi:** Qurban Qurbanov.

**"Aberdin":** Co Lyuis, Deklan Qallaxer, Ross Makkrori, Cək Makenzi, Kelvin Remsi, Skott Braun (kap.), Lyuis Fergüson, Teddi Cenks (Cey Emmanuel-Tomas, 46), Funso Oco, Conni Heyz (Nayal Makgin, 75), Kristian Ramires (Din Kempbell, 82). **Baş məşqçi:** Stefen Qlass.

***"Makkabi" (Haifa, İsrail) - "Neftçi" (Azərbaycan) 4:0 (2:0)***

**İLK OYUN** - 3:3

**26 avqust.** Hayfa. "Semmi Ofer" stadionu.

**Hakimlər:** Aleksandar Stavrev - Deyan Kostadinov, Qoçe Petreski - Deyan Yakimovksi (Şimali Makedoniya).

**Qol:** Menaxem, 20, Atzili 45+2, Haziza 52-pen., Əbu Fani, 69.

**Sarı vərəqə:** Streyn, 8, Dahan, 28, Haziza, 45+3//M.Çəlik, 45+3, E.Mahmudov, 52, Kane, 53.

**"Neftçi":** Aqil Məmmədov, Uqu Baştu, Mərd Çəlik, Voislav Stankoviç, Fəhmin Muradbəyli (Xəyal Nəcəfov, 73), Arramiş, Mamadu Kane, Romen Bask, Emin Mahmudov (kap.; Vüsal Əsgərov, 80), Sabir Buqren (Asim Əlizadə, 80), Sezar Meza Kolli.

**Baş məşqçi:** Samir Abasov.

**"Makkabi":** Coşua Kohen, Ori Dahan, Boqdan Planiç (Ofri Arad, 76), Sun Menaxem, Rayan Streyn (Yosef Raz Meyr, 61), Xose Rodriges (Əli Məhəmməd, 70), Məhəmməd Əbu Fani, Tyaronn Çeri (kap.; Yuval Aşkenazi, 70), Ömər Atzili, Dalev Haziza, Din David (Ben Sahar, 61).

**Baş məşqçi:** Barak Baxar.

# Aydın Əli oğlu İbrahimov



***Azərbaycan idman ictimaiyyətinə ağır itki üz verib. Sərbəst güləş üzrə Avropa və dünya çempionu, Olimpiya mükafatçısı Aydın Əli oğlu İbrahimov 2 sentyabr 2021-ci il tarixdə, ömrünün 83-cü ilində vəfat edib.***

Aydın İbrahimov 1938-ci il sentyabrın 17-də Gəncə şəhərində anadan olub. İdmanda ilk addımlarını doğma şəhərində atan A.İbrahimov respublika və ümumittifaq miqyaslı bir sıra yarışların qalib və mükafatçısı olub.

O, 1957 və 1960-cı illərdə SSRİ çempionatının bürünc, 1963-cü ildə isə gümüş mükafatçısı olub. 1964-cü ildə SSRİ çempionu adını qazanıb. Güləş üzrə dünya (1963-cü ildə Bolqarıstanda) və Avropa çempionudur (1966-cı Almaniyada).

1964-cü ildə Yaponiyanın paytaxtı Tokioda keçirilmiş Yay Olimpiya Oyunlarında bürünc medal qazanıb.

A.İbrahimov 1961-ci ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu bitirib. Sərbəst güləş üzrə Əməkdar idman ustası (1963), Beynəlxalq dərəcəli hakim (1972), SSRİ-nin Əməkdar məşqçisi (1980), Beynəlxalq dərəcəli idman ustası (1959), Azərbaycan Respublikasının Əməkdar bədən tərbiyəsi və idman xadimi (1989) adlarına layiq görülüb.

Müxtəlif illərdə Azərbaycan yığma komandasının baş məşqçisi (1973-1975), Yuqoslaviya yığma komandasının baş məşqçisi (1971-1972), SSRİ "Dinamo" Mərkəzi Şurasının baş məşqçisi (1978-1982) vəzifələrində çalışıb.

Təcrübəli idman mütəxəssisi Aydın İbrahimov 1988-1997-ci illərdə "Neftçi" futbol klubunun ilk prezidenti olub.

Məşqçilik fəaliyyəti dövründə 5 Olimpiya çempionu, 20 dünya çempionu,15 Avropa çempionu yetişdirib. SSRİ-nin "Dinamo" cəmiyyətinin fəxri üzvü güləşin inkişafındakı xidmətlərinə görə iki dəfə Beynəlxalq Güləş Federasiyasının qızıl medalına layiq görülüb (1977, 2007).

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 27 sentyabr 2019-cu il tarixli sərəncamı ilə Aydın İbrahimov Azərbaycan Respublikasının Prezidentinin fərdi təqaüdünə layiq görülüb.

Dünya və Avropa çempionu, Olimpiya mükafatçısı, Prezident təqaüdçüsü Aydın İbrahimovun əziz xatirəsi idman ictimaiyyətinin qəlbində daim yaşayacaq.

Allah rəhmət eləsin!

***Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi***

# Tarixin ilk Konfrans liqasında nə var, nə yox



*55 milli assosiasiyadan 184 komandanın mübarizəyə qoşulduğu Avropa Konfrans liqasının tarixdə ilk mövsümünün əsas mübarizəsinin detallarına aydınlıq gətirilib.*

Bu yarışa 46 klub Çempionlar və Avropa liqalarından transfer olunub. Azərbaycan təmsilçisinin də yer aldığı əsas mübarizədə 26 ölkənin (Azərbaycan, Almaniya, Avstriya, Belçika, Bolqarıstan, Cəbəllütariq, Çex Resp., Danimarka, Ermənistan, Estoniya, Finlandiya, Fransa, İngiltərə, İsrail, İsveçrə, İtaliya, Kipr, Niderland, Norveç, Qazaxıstan, Rumıniya, Serbiya, Slovakiya, Sloveniya, Ukrayna, Yunanıstan) 32 təmsilçisi 8 qrupa bölünüb. "Qarabağ" "H" qrupunda "Bazel" (İsveçrə), "Kayrat" (Qazaxıstan) və "Omonia" (Kipr) ilə mübarizə aparacaq.

***Tarixdə ilk dəfə keçirilən Konfranslar liqası yarışının digər qruplarının tərkibi belədir:***

**"A":** LASK (Avt), "Makkabi" (Tel-Əviv, İsr), "Alaşkert" (Erm), HİK (Fin);

**"B":** "Gent" (Bel), "Partizan" (Ser), "Flora (Est), "Anortosis" (Kip);

**"C":** "Roma" (İta), "Zorya" (Luhansk, Ukr), SSKA (Sofiya, Bol), "Bodo/Qlimt (Nor);

**"D":** "AZ-67" (Nid), "Kluj" (Rum), "Yablones" (Çex), "Randers" (Dan);

**"E":** "Slavia" (Praqa, Çex), "Feyenoord" (Nid), "Union" (Berlin, Alm), "Makkabi (Hayfa, İsr);

**"F":** "Kopenhagen" (Dan), PAOK (Yun), "Slovan" (Bratislava, Svk), "Linkoln Red İmps" (Cəb);

**"G":** "Tottenhem" (İng), "Renn" (Fra), "Vitess" (Nid), "Mura" (Svn).

Qrupların qalibləri birbaşa 1/8 final mərhələsinə adlayırlar. Qruplarda 2-ci yerlərin sahibləri Avropa Liqasının qrup mərhələsində 3-cü yerləri tutmuş komandalarla nokaut mərhələsinin pley-offunda qarşılaşacaqlar. İlk yarışın final matçının ev sahibi kimi Albaniya paytaxtı Tirana tarixə düşəcək. Lakin ölkənin təmsilçisi bu yarışda yer ala bilməyib.

Yarışın kuboku. Dizaynını məşhur "Pentaqram"ın London studiyası hazırlayıb, brendinq işini isə "Turkua"nın elə eyni şəhərdəki ofisi yerinə yetirib. Mükafat qrup iştirakçılarını təmsil edən və birbirinə sarmaşan 32 təkər oxundan ibarət fiqurdan ibarətdir. Onun özülü və yuxarı hissəsi mat qalvanik polad effektli mat latundan hazırlanıb, oxlar isə parlaq gümüşü işləmədən ibarətdir.

Yarışın mükafat fondu 235 milyon avrodur. Qrup mərhələsinə vəsiqə əldə edənlər 2 milyon 940 min avro vəsaitin sahibidirlər. Qruplarda qələbənin qiyməti 500 min, heç-heçə isə 166 min avrodur. Qrup qalibləri hərəyə daha 650 min, ikinci yerlərin sahibləri isə 325 min avroya sahib çıxacaqlar. Nokaut pley-offunun qaliblərinin bonusu 300 mindir. Sonrakı finallar üzrə 1/8 - 600 min, 1 milyon - 1/4, 2 milyon - 1/2 finalda qaliblərə paylanacaq. Finalçının payı 3 milyon, qalibin isə 5 milyon avrodur.

Yeri gəlmişkən, qrupa düşdüyü üçün 2 milyon 940 min avronun sahibi olan "Qarabağ" bu yarışın təsnifat mərhələlərini 2-cisindən başladığından daha 350 min və sonra 550 min avro ilə mükafatlandırılıb. "Neftçi" isə pley-offda uduzduğu üçün aldığı 750 min avroya çempion kimi heç bir yarışın qrupuna düşmədiyi üçün daha 260 min avroya da yiyələnib.

**Təqvim. Qrup mərhələsi. "H" qrupu.**

***1-ci tur. 16 sentyabr***
19:30. "Kayrat" - "Omonia"
21:45. "Qarabağ" - "Bazel"

***2-ci tur. 30 sentyabr***
23:00. "Bazel" - "Kayrat"
00:00. "Omonia" - "Qarabağ"

***3-cü tur. 21 oktyabr***
18:45. "Qarabağ" - "Kayrat"
00:00. "Bazel" - "Omonia"

***4-cü tur. 4 noyabr***
19:30. "Kayrat" - "Qarabağ"
21:45. "Omonia" - "Bazel"

***5-ci tur. 25 noyabr***
19:30. "Kayrat" - "Bazel"
21:45. "Qarabağ" - "Omonia"

***6-cı tur. 9 dekabr***
00:00. "Omonia" - "Kayrat"
00:00. "Bazel" - "Qarabağ"
2021-ci il.

**Nokaut pley-offu.**

**Püşk:** 13 dekabr 2021-ci il.

**Oyunlar:** 17 və 24 fevral 2022-ci il.

**1/8 final. Püşk:** 25 fevral.

**Oyunlar:** 10 və 17 mart 2022-ci il.

**1/4 və 1/2 final. Püşk:** 18 mart.

**Oyunlar:** 1/4 final: 7 və 14 aprel; 1/2 final: 28 aprel və 5 may.

**Final:** 25 may (Tirana, Albaniya. Milli stadion)

# Hətta nağıllar reallıqla bitir: üç alma yerə düşür



***Azərbaycanın futbol millisi seçmə mərhələdə, nəhayət, ilk xalını qazandı. Bu hadisənin sentyabrdakı üç görüşdən birincisində - Lüksemburqda qazanılacağını daha çox gözləyənlər nəinki yanıldılar, hətta son illərin ən təzadlı və qəribə start heyəti ilə ən xaotik məğlubiyyətinə şahidlik etdilər. Bunun tam əksinə olaraq, İrlandiyada normal heyətlə ilk hissədəki bəxt ulduzu parlayan bir komandanın ikinci hissədə yenə heyət natarazlığı ilə daha bir təzadlı oyunla ilk xal əldə edildi.***

Baş məşqçinin Lüksemburqdakı start heyəti ilə bağlı məntiqə sığmayan izahatı və İrlandiyadakı oyunla bağlı əvəzetmələrinin yekunu olaraq faktiki 10 nəfərlə oynamasına (epizodlardan birində Əhmədzadənin zədələnməsi) da don geyindirə bilməməsi, onun hələ də heyətlə yanaşı, oyun quruculuğunda da optimal qərarlar verə bilməməsini göstərir.

Söz yox ki, təcrübəli məşqçinin oyun baxışları və qərarlarını müzakirə etmək istəməzdim. Lakin bu nəticəyə birbaşa təsir göstərirsə, mütləq düşündürməlidir. Lüksemburqdakı matçla bağlı bir söz deməyin də mənası yoxdur. Əgər dalbadal 3 oyunda eyni heyətlə oynamağın qeyri-mümkünlüyünü düşünürdüsə, İrlandiya ilə matça Ramil Şeydayevin, Rəhim Sadıqovun əsas heyətdə çıxması daha məntiqli ola bilərdi. Baş verənlər isə onun rəqibləri düzgün qiymətləndirə bilməməsinin nəticəsidir.

İrlandiya millisini oyunçuların çıxış etdiyi klublarla, fiziki hazırlığı ilə deyil, real oyun səviyyəsi ilə görmək lazımdır. Azərbaycan millisi ilə qarşılaşmaya qədər irlandların da xalsız qalması təsadüf adlandırıla bilməz.

***(Ardı 8-ci səhifədə)***

# Dünya kuboku-2022. Seçmə mərhələ. Avropa zonası. "A" qrupu

**Lüksemburq - Azərbaycan 2:1 (2:0)**

**1 sentyabr.** Lüksemburq. "Lüksemburq" stadionu.

**Hakimlər:** İrfan Pelto - Senad İbrisimbəyoviç, Davor Belyo - Admir Şehoviç (Bosniya və Herseqovina).

**VAR hakimləri:** Marko Frits - Markus Sinn (Almaniya).

**Qol:** Mixael Pintu, 8, Rodrigeş, 28-pen.//E.Mahmudov, 67.

**Sarı vərəqə:** Martins, 66, Bohnert, 81//A.Hüseynov, 27, Ozobiç, 47, Krivotsyuk, 90.

**Lüksemburq:** Antoni Moris, Loran Yans (kap.), Enes Mahmudoviç, Dirk Karlson, Kristofer Martins, Leandro Barreyro, Mixael Pintu (Erik Veyqa, 76), Olivye Till (Florian Bohnert, 74), Sebastyan Till (Moris Devill, 90+2), Danel Sinani (Aldin Skenderoviç, 90+3), Jerson Rodriqeş. **Baş məşqçi:** Lyuk Holts.

**Azərbaycan:** Şahruddin Məhəmmədəliyev, Maksim Medvedev (kap.), Höcət Haqverdi, Azər Salahlı (Rəhim Sadıqov, 68), Abbas Hüseynov (Anton Krivotsyuk, 46), Qara Qarayev (Anatoli Nuriyev, 74), İsmayıl İbrahimli (Namiq Ələsgərov, 46), Emin Mahmudov, Toral Bayramov, Filip Ozobiç, Əli Qurbani (Mahir Emreli, 46). **Baş məşqçi:** Canni De Byazi.

**Qrupun digər oyunu: Portuqaliya - İrlandiya 2:1** (Kriştianu Ronaldu, 89, 90+6//Con İqan, 45).

**Yoxlama oyun: Qətər - Serbiya 0:4** (Xuxi, 2-öz qap., Yoviç, 18, Vlahoviç, 60, Milenkoviç, 85).

**İrlandiya - Azərbaycan 1:1 (0:1)**

**4 sentyabr.** Dublin. "Aviva" stadionu.

**Hakimlər:** Jerom Brisar - Benjamin Paje, Finjan Ervan Kristof - Mikael Lesaj (Fransa).

**VAR hakimləri:** Stefani Frappar - Mikael Berşebrü (Fransa).

**Qol:** Daffi, 87//E.Mahmudov, 45+1.

**Sarı vərəqə:** Molambi, 56, Brauni, 90+5//Krivotsyuk, 67, E.Mahmudov, 87.

**İrlandiya:** Qevin Bazunu, Şeyn Daffi, Con İqan, Şeymus Koulmen, Ceyson Molambi (Konor Huriheyn, 63), Coş Kallen (Alan Brauni, 88), Ceyms Makklin, Aaron Konnolli (Deril Horqan, 46), Mətt Doherti (Ceyms Kollins, 80), Troy Perrott (Kallum Robinson, 63), Adam Aydah.

**Baş məşqçi:** Stefen Kenni.

**Azərbaycan:** Şahruddin Məhəmmədəliyev, Elvin Bədəlov, Höcət Haqverdi, Anton Krivotsyuk, Maksim Medvedev (kap; Abbas Hüseynov, 70), Qara Qarayev, Emin Mahmudov, Toral Bayramov (Azər Salahlı, 70), Filip Ozobiç (Anatoli Nuriyev, 79), Namiq Ələsgərov (Rüstəm Əhmədzadə, 70), Mahir Emreli (Ramil Şeydayev, 79).

**Baş məşqçi:** Canni De Byazi.

**Qrupun digər oyunu:** Serbiya - Lüksemburq 4:1 (A.Mitroviç, 22, 35, Şano, 82-öz qap., Milenkoviç, 90+6//O.Till, 77).

**Yoxlama oyun:** Qətər - Portuqaliya 1:3 (Ə.Həsən, 61//Andre Silva, 23, Otaviu, 25, Brunu Fernandeş, 88-pen.).

| | O | Q | H | M | T | X |
|---|---|---|---|---|---|---|
| 1. Serbiya | 4 | 3 | 1 | 0 | 11-6 | 10 |
| 2. Portuqaliya | 4 | 3 | 1 | 0 | 8-4 | 10 |
| 3. Lüksemburq | 4 | 2 | 0 | 2 | 5-8 | 6 |
| 4. İrlandiya | 4 | 0 | 1 | 3 | 4-7 | 1 |
| 5. Azərbaycan | 4 | 0 | 1 | 3 | 3-6 | 1 |

**Növbəti oyunlar:**
Azərbaycan - Portuqaliya
**7 sentyabr.** 20:00. Bakı. Olimpiya stadionu.
**Qrupun digər oyunu:** İrlandiya - Serbiya
**Yoxlama oyun:** Lüksemburq - Qətər.

# Futbol. Azərbaycan Premyer Liqası. 2021-22-ci illər mövsümü

**Təqvim**
**I dövrə**
**3-cü tur**

***11 sentyabr (şənbə)***
9. "Keşlə" - "Zirə"
10. "Sabah" - "Qəbələ"
***12 sentyabr (bazar)***
11. "Səbail" - "Sumqayıt"
12. "Neftçi" - "Qarabağ"

***16 sentyabr (cümə axşamı)***
*Konfrans liqası. 1-ci tur.*

**4-cü tur**

***18 sentyabr (şənbə)***
13. "Qəbələ" - "Səbail"
14. "Zirə" - "Sabah"
***19 sentyabr (bazar)***
15. "Neftçi" - "Keşlə"
***20 sentyabr** (bazar ertəsi)*
16. "Qarabağ" - "Sumqayıt"

**5-ci tur**

***25 sentyabr (şənbə)***
17. "Keşlə" - "Qarabağ"
18. "Səbail" - "Zirə"
***26 sentyabr (bazar)***
19. "Sabah" - "Neftçi"
20."Sumqayıt" - "Qəbələ"
***30 sentyabr (cümə axşamı)***
*Konfrans Liqası. 2-ci tur*

**6-cı tur**

***1 oktyabr (cümə)***
21. "Zirə" - "Sumqayıt"
***2 oktyabr (şənbə)***
22. "Neftçi" - "Səbail"
23. "Keşlə" - "Sabah"
***3 oktyabr (bazar)***
24. "Qarabağ" - "Qəbələ"

***9 oktyabr (şənbə)***
**Dünya kuboku-2022. Seçmə mərhələ. "A" qrupu.**
Azərbaycan - İrlandiya

***12 oktyabr (çərşənbə axşamı)***
Serbiya - Azərbaycan
***13 oktyabr (çərşənbə)***
**Ehtiyat gün**

**7-ci tur**

***16 oktyabr (şənbə)***
25. "Səbail" - "Keşlə"
26. "Qəbələ" - "Zirə"
***17 oktyabr (bazar)***
27. "Sabah" - "Qarabağ"
28. "Sumqayıt" - "Neftçi"

***21 oktyabr (cümə axşamı)***
**Konfrans liqası. 3-cü tur**

**II dövrə**
**8-ci tur**

***23 oktyabr (şənbə)***
29. "Sabah" - "Sumqayıt"
30. "Neftçi" - Zirə"
***24 oktyabr (bazar)***
31. "Keşlə" - Qəbələ"
***25 oktyabr (bazar ertəsi)***
32. "Səbail" - "Qarabağ"

**9-cu tur**

***30 oktyabr (şənbə)***
33. "Qarabağ" - "Neftçi"
34. "Zirə" - "Keşlə"
***31 oktyabr (bazar)***
35. "Qəbələ" - "Sabah"
36. "Sumqayıt" - "Səbail"

***4 noyabr (cümə axşamı)***
**Konfrans liqası. 4-cü tur**

**10-cu tur**

***6 noyabr (şənbə)***
37. "Sabah" - "Zirə"
38. "Keşlə" - "Neftçi"
***7 noyabr (bazar)***
39. "Sumqayıt" - "Qarabağ"
40. "Səbail" - "Qəbələ"

***11 noyabr (cümə axşamı)***
**Dünya kuboku-2022. Seçmə mərhələ. "A" qrupu.**
Azərbaycan - Lüksemburq

***14 noyabr (bazar)***
**Yoldaşlıq görüşü**
Azərbaycan - Qətər

**11-ci tur**

***19 noyabr (cümə)***
41. "Qarabağ" - "Keşlə"
***20 noyabr (şənbə)***
42. "Neftçi" - "Sabah"
43. "Zirə" - Səbail"
***21 noyabr (bazar)***
44. "Qəbələ" - "Sumqayıt"

***25 noyabr (cümə axşamı)***
**Konfrans liqası. 5-ci tur**

**12-ci tur**

***27 noyabr (şənbə)***
45. "Səbail" - "Neftçi"
46. "Sabah" - "Keşlə"
***28 noyabr (bazar)***
47. "Sumqayıt" - "Zirə"
29 noyabr (bazar ertəsi)
48. "Qəbələ" - "Qarabağ"

***1 dekabr (çərşənbə)***
**Ehtiyat gün**

**13-cü tur**

***4 dekabr (şənbə)***
49. "Qarabağ" - "Sabah"
50. "Keşlə" - "Səbail"
***5 dekabr (bazar)***
51. "Neftçi" - "Sumqayıt"
52. "Zirə" - "Qəbələ"
***9 dekabr (cümə axşamı)***
**Konfrans liqası. 6-cı tur**

***10-11 dekabr (cümə-şənbə)***
**Azərbaycan kuboku. 1/8 final.**

***13 dekabr (bazar ertəsi)***
**Konfrans Liqası. 1/16 final. Püşkatma**

**14-cü tur**

***15 dekabr (çərşənbə)***
53. "Qəbələ" - "Neftçi"
54. "Sumqayıt" - "Keşlə"
***16 dekabr (cümə axşamı)***
55. "Qarabağ" - "Zirə"
56. "Səbail" - "Sabah"
***1-2 fevral (çərşənbə axşamı-çərşənbə)***
**Azərbaycan kuboku. 1/4 final. İlk oyunlar**

**III dövrə**
**15-ci tur**

***7 fevral (bazar ertəsi)***
57. "Neftçi" - "Qarabağ"
58. "Keşlə" - "Zirə"
***8 fevral (çərşənbə axşamı)***
59. "Sabah" - "Qəbələ"
60. "Səbail" - "Sumqayıt"

***12-13 fevral (şənbə-bazar)***
**Azərbaycan kuboku. 1/4 final. Cavab oyunları**

***17 fevral (cümə axşamı)***
**Konfrans liqası. 1/16 final. İlk oyunlar**

**16-cı tur**

***19 fevral (şənbə)***
61. "Neftçi" - "Keşlə"
62. "Qəbələ" - "Səbail"
***20 fevral (bazar)***
63. "Zirə" - "Sabah"
64. "Qarabağ" - "Sumqayıt"
***24 fevral (cümə axşamı)***
**Konfrans liqası. 1/16 final. Cavab oyunları**

**17-ci tur**

***27 fevral (şənbə)***
66. "Sumqayıt" - "Qəbələ"
67. "Sabah" - "Neftçi"
***28 fevral (bazar ertəsi)***
68. "Keşlə" - "Qarabağ"
69. "Səbail" - "Zirə"
***2 mart (çərşənbə)***
**Ehtiyat gün**

**18-ci tur**

***5 mart (şənbə)***
69. "Neftçi" - "Səbail"
70. "Zirə" - "Sumqayıt"
***6 mart (bazar)***
71. "Keşlə" - "Sabah"
72. "Qarabağ" - "Qəbələ"

***10 mart (cümə axşamı)***
**Konfrans liqası. 1/8 final. İlk oyunlar**

**19-cu tur**

***12 mart (şənbə)***
73. "Sabah" - "Qarabağ"
74. "Səbail" - "Keşlə"
***13 mart (bazar)***
75. "Sumqayıt" - "Neftçi"
76. "Qəbələ" - "Zirə"

***17 mart (cümə axşamı)***
**Konfrans liqası. 1/8 final. Cavab oyunları**

***18 mart (cümə)***
**Konfrans liqası. 1/4 və 1/2 finallar. Püşkatma.**

**20-ci tur**

***18 mart (cümə)***
77. "Neftçi" - "Qəbələ"
78. "Keşlə" - "Sumqayıt"
***19 mart (şənbə)***
79. "Sabah" - "Səbail"
80. "Zirə" - "Qarabağ"

***21-29 mart (bazar ertəsi-çərşənbə axşamı)***
*Milli yığma komandaların rəsmi təlim-məşq və oyun günləri*

**21-ci tur**

***2 aprel (şənbə)***
81. "Qarabağ" - "Səbail"
82. "Sumqayıt" - "Sabah"
***3 aprel (bazar)***
83. "Qəbələ" - "Keşlə"
84. "Zirə" - "Neftçi"

***7 aprel (cümə axşamı)***
**Konfrans liqası. 1/4 final. İlk oyunlar**

**IV dövrə**
**22-ci tur**

***9 aprel (şənbə)***
85. "Sabah" - "Zirə"
86. "Keşlə" - "Neftçi"
***10 aprel (bazar)***
87. "Sumqayıt" - "Qarabağ"
88. "Səbail" - "Qəbələ"

***14 aprel (cümə axşamı)***
**Konfrans liqası. 1/4 final. Cavab oyunları**

**23-cü tur**

***15 aprel (cümə)***
89. "Qarabağ" - "Keşlə"
92. "Qəbələ" - "Sumqayıt"
***16 aprel (şənbə)***
91. "Zirə" - Səbail"
90. "Neftçi" - "Sabah"

***20 aprel (çərşənbə)***
**Azərbaycan kuboku. 1/2 final. İlk oyunlar**

24-cü tur

***24 aprel (bazar)***
93. "Qəbələ" - "Qarabağ"
94. "Sumqayıt" - "Zirə"
95. "Səbail" - "Neftçi"
96. "Sabah" - "Keşlə"

***28 aprel (cümə axşamı)***
**Konfrans liqası. 1/2 final. İlk oyunlar**

**29 aprel (cümə)**
**Azərbaycan kuboku. 1/2 final. Cavab oyunları**

**25-ci tur**

***3 may (çərşənbə axşamı)***
97. "Qarabağ" - "Sabah"
98. "Keşlə" - "Səbail"
***4 may (çərşənbə)***
99. "Neftçi" - "Sumqayıt"
100. "Zirə" - "Qəbələ"

**5 may (cümə axşamı)**
**Konfrans liqası. 1/2 final. Cavab oyunları**

**26-cı tur**

***8 may (bazar)***
101. "Qarabağ" - "Zirə"
102. "Səbail" - "Sabah"
***9 may (bazar ertəsi)***
103. "Qəbələ" - "Neftçi"
104. "Sumqayıt" - "Keşlə"

***11 may (çərşənbə)***
**Ehtiyat gün**

**27-ci tur**

***15 may (bazar)***
105. "Səbail" - "Qarabağ"
106. "Sabah" - "Sumqayıt"
107. "Keşlə" - Qəbələ"
108. "Neftçi" - Zirə"

**28-ci tur**

***21 may (şənbə)***
109. "Qarabağ" - "Neftçi"
110. "Zirə" - "Keşlə"
111. "Qəbələ" - "Sabah"
112."Sumqayıt" - "Səbail"

***25 may (çərşənbə)***
**Konfrans liqası. Final. (Albaniya, Tirana. Milli stadion)**

***27 may (cümə)***
Azərbaycan kuboku. Final.

# İDMAN

№ 18 (7113) 7 sentyabr 2021


# Hətta nağıllar reallıqla bitir: üç alma yerə düşür



(Əvvəli 7-ci səhifədə)

Portuqaliyada son anlara qədər komandanın qələbəyə yaxın olması isə daha çox portuqalların xidməti hesab olunmalıdır.

Hər necə oldusa, milli komandanın hələ də formalaşmadığını söyləmək olar. Baş məşqçinin isə necə komanda yaratmaq istədiyi də bəlli deyil. Belə getsə, o da Azərbaycana gələrək, ailə büdcəsini normallaşdıran növbəti məşqçi kimi tarixə düşməyə iddialıdır.

Əlbəttə, onun hələ də ən azı iki qələbə də qazanıb, mübarizəni major notla başa vurmaq imkanı və vaxtından əvvəl ölkəni tərk etməmək şansı var. Amma bütün bunlar Azərbaycan futboluna yenə heç nə verməyəcəksə, daha bir nağıl da burada bitəcək.

Ümumən, Azərbaycan milli komandalarına xərclənən vəsait AFFA büdcəsinin aşağı-yuxarı yarısına bərabərdirsə və illərdir bu komandaya münasibətin özündə belə dəyişiklik yoxdursa, düşünməyə dəyər. Komanda quruculuğunda yol verilən qüsurlardan çox danışmaq da nağıl nəqlindən başqa bir şey deyil. Üzü Torresdən bu yana, ələlxüsus Foqtsvari nağılların sonunda göydən üç almanın düşməməsi təbii və ya qanuni olduğu qədər də ədalətlidir.

Milliləşdirmənin bu dəfə futbolçu yaşının qürub çağına qədəm qoymuş Ozobiçsayağı davamı da düşündürücüdür. Milliləşdirmə və milliyə çəkilən xərclər əvəzinə daha faydalı işlə məşğul olmaq üçün Danimarka nümunəsinə bir nəzər salmaq, "Qırmızı sap"-dan ibrət götürmək olar. Dünya futbolunda belə nümunələr istənilən qədərdir. Sadəcə, bu təcrübəni öyrənmək və ən əsası tətbiq etmək həvəsi olsun.

Ümumən isə real milli proqramı həyata keçirməyincə futbol uğurlarından bəhs etmək mümkün olmayacaq. Üstəlik, artıq AFFA-nın bu inkişafa nail olmaq üçün hər bir əsası və lazım gəlsə, ilkin maddi baza qurmağa da ehtiyacı yoxdur. Böyük əksər regionlarda olimpiya komplekslərində nəzdində universal iş qurmaq üçün şərait var. Bu, həm də həmin komplekslərin inkişafına və milli idman mərkəzi statusunun möhkəmlənməsinə də xüsusi təkan verə bilər. Əlbəttə, bunun üçün kadrlar da lazımdır. Emrelinin uğurları fonunda Azərbaycan uşaq futbolu məktəbinin qüsurlarının da üzə çıxması, bax, məhz bu dərslərə yol açır. Əslində, bunu illərdir deyir-yazırıq: ölkəmizdə uşaq futbolu primitiv məşqçi-müəllim yanaşması ilə çox da uzağa getmir. Bu səbəbdən AFFA-nın milli komandaya ayırdığı vəsaitin bir qismini uşaq futboluna xərclənən, ya xərclənməyən məbləğlərin üzərinə gəlsə, indi daha effektli nəticə əldə etmək olar. Tanış-bilişə bölmədən, uşaq futbolunda effektli nəticə göstərən məşqçilərin ölkə xaricində effektli təcrübə keçməsi, mütəxəssislərin müddətli olaraq dəvət edilməsi, xüsusi proqramların seminarlar yolu ilə aşılanması bu işin başlanğıcı ola bilər. Amma bu işlərin hamısı yalnız və yalnız uşaq futbolunun normal inkişaf proqramı işlənmədən və burada təhsil, kütləvilik, istedadların diqqətə alınması, psixoloji məqamlar nəzərə alınmadan mümkün olmayacaq. Bundan da vacib bir proqramın təsirli olması mütləq şəkildə işlək mexanizmləri və müddətlərin göstərilməsi olmadan həyata keçirilsə, həm sözdə qalacaq, həm də yolverme, gözə kül üfürmə kampaniyasından başqa bir şey olmayacaq.

Hətta nağılların ədaləti belə reallığı əks etdirir: göydən gəlsə də, üç alma mütləq şəkildə yerə düşür. Artıq silkələnmək və real işə keçmək zamanıdır.

**BATI YAR**

# Maks Ferstappen Belçika və Niderland Qran-Prilərinin qalibi olub

Formula 1 üzrə dünya çempionatında Belçika Qran-prisi güclü yağış səbəbindən ləğv edilib. Yarış Belçikanın "Spa-Francorchamps" avtodromunda baş tutub.

Turnir Bakı vaxtı ilə saat 16:00-a planlaşdırılıb, amma yağışa görə təxirə salınıb. Sonra iştirakçılar ikinci dəfə yarışa başlamağa cəhd ediblər, pilotlar təhlükəsizlik maşınının arxasında bir neçə dairə keçiblər, amma hava şəraiti yarışı davam etdirməyə imkan verməyib.

Bununla da üç dövrədən sonra sıralamada birinci olan "Red Bull" pilotu Maks Ferstappen yarışın qalibi elan edilib. "Wilyams"dan Rassel ikinci, "Mercedes"dən Hamilton isə üçüncü olub.

Sentyabrın 5-də Formula 1 üzrə dünya çempionatında Niderland Qran-prisi keçirilib. Zandfort avtodromunda baş tutan yarışın qalibi yenidən "Red Bull" komandasının üzvü Maks Ferstappen olub. Niderland mərhələsinin ikincisi "Mercedes"dən Luis Hamilton, kürsünün ən aşağı pilləsində onun komanda yoldaşı, finlandiyalı Valtteri Bottas qərarlaşıb. Ümumi hesabda da lider pilotlar eyni ardıcıllıqda qərarlaşıblar. Komanda hesabında isə liderlər "Mercedes", "Red Bull" və "Ferrari"dir .

# Avrokuboklar: Yalnız "Qarabağ"la



(Əvvəli 6-cı səhifədə)

Mahir Emrelinin yolunu açmaqla kollektiv nəinki ən doğru addımı atıb, hətta irəliləmək fürsəti əldə edib. Daha çox tənqid atəşi altında olan Emreli indi canını nəinki bu tənqidlərdən qurtarıb, hələ Azərbaycan futbolunda yeni ənənələr üçün də meydan qoyub. Bunun üçün onun uğurlarına ehtiyac var.

Qayıdaq, "Qarabağ"a. UEFA-nın yaratdığı yeni yarış Azərbaycan təmsilçisi üçün tarixdə ilk dəfə yeni ilin ilk aylarında da futbol görmək fürsəti verib. Digər qruplara nəzər salsaq, rəqiblər dişə çəkiləndir və bu fürsətdən faydalanmasa, "Qarabağ"ın da mövsümünü uğurlu saymaq olmaz. Əlbəttə, dişə çəkilən deyəndə, təmsilçimizin favorit olduğunu söyləmirik. Mübarizə meydanında əvvəl ağıllı, sonra təhlükəli olmaq lazımdır. Çünki "Qarabağ" hər üç rəqibi üçün prinsipial əhəmiyyət kəsb edəcək. Onların qrupdan çıxmasının əsas yolu məhz "Qarabağ"dan keçəcək. "Aberdin"lə görüşdə tətbiq edilmiş və tarixi dərsliklərdə yer almağa layiq olan taktiki planlamanı inkişaf etdirmək, rəqibləri öyrənməklə, onları üslub diktəsi altına salaraq lazım olan nəticələrə doğru irəliləmək çox vacibdir. Üstəlik, ötənilki mövsümdən fərqli olaraq, "Qarabağ" bu dəfə milli mövsümdə də şanslıdır. "Neftçi" özü diz çökməyə hazır olduğunu, elə ilk turların göstərdiyi kimi, autsayder imiclilərlə çətinliklə mübarizə aparacaq səviyyədədir. Bu arada qismən favoritizmə meylli ikinci heyəti də formalaşdıra bilsə və qalaqurmalarını ağıllı etsə, "Qarabağ" tarixnin yeni inkişaf mərhələsinin ilk səhifəsini açmağa yaxındır.

**BATI YAR**

# Azərbaycan gimnastı Bolqarıstanda bürünc medal qazanıb

Bolqarıstanda aerobika gimnastikası üzrə 12-ci "Plovdiv Cup" açıq turniri keçirilib. Turnirdə ölkəmizi Vladimir Dolmatov, Nurcan Cabbarlı, Dilarə Qurbanova və Məryəm Topçubaşova təmsil ediblər.

Son dünya çempionatının finalçısı olan V.Dolmatov bu yarışda da fərqlənməyi bacarıb. Bu dəfə o, fəxri kürsünün üçüncü pilləsində yer alıb. İlk iki yerdə isə Meksika və İtaliya təmsilçiləri qərarlaşıblar.

# Qısa-qısa

Türkiyənin Adana şəhərində citkundo üzrə dünya çempionatında yeniyetmələr arasında Amin Əlili (52 kq), Zaur Quluzadə (56 kq), gənclərin yarışında Pərviz Abıyev (48 kq), Amal Məmmədov (52 kq), böyüklərin mübarizəsində isə Rəşad İsayev (+90 kq) və İlqar İbrahimov (90 kq) 1-ci, Fərrux İbrahimov (67 kq) ikinci, Mehdi Salmanov (75 kq) isə üçüncü pillədə qərarlaşıblar. Peşəkarlar arasında Elçin Eminov Mərakeş idmançısına qalib gələrək çitkundo üzrə dünya kəmərinin sahibi olub.

Beş turnirdən ibarət olan "Grand Chess Tour" şahmat seriyası başa çatıb. Şahmatçımız Şəhriyar Məmmədyarov yarışda üçüncü yeri tutub və 127 min ABŞ dolları qazanıb. Turnirin qalibi ABŞ təmsilçisi Uesli So, ikinci yerin sahibi fransalı şahmatçı Maksim Vaşe-Laqrav sahib olub.

Azərbaycan Sindo-ryu və Pencak-silat Federasiyasının prezidenti Abbas Hünbətova Beynəlxalq Cəng Sənəti Assosiasiyası tərəfindən 5-ci dan sertifikatı təqdim olunub. Azərbaycanlı mütəxəssis mərkəzi Özbəkistanda yerləşən beynəlxalq federasiyanın təsisçisi Abbos Usmanov tərəfindən cəng sənəti döyüş növünün inkişafındakı xidmətlərinə görə mükafatlandırılıb.


Qəzetin təsisçisi Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyidir

Baş redaktor: Qabil MEHDİYEV

Ünvan: AZ-1073, Bakı, Mətbuat prospekti, 529-cu məhəllə, III mərtəbə. Telefon: faks: 510-53-10,
Web: www.azsport.az;
E-mail: idman@mys.az; Lisenziya: B235
Bank rekvizitlərimiz: h/h-AZ69AIIB33080019443300230103,
VÖEN: 1300432691, "Kapitalbank"ın Yasamal filialı, kod-200037,
VÖEN: 9900003611, Müxbir hesab: AZ37NABZ01350100000000001944

"İdman"ın kompüter mərkəzində yığılıb-səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
Tiraj: 1000 Sifariş: 1675
Qəzet hər həftənin çərşənbə axşamı günü çıxır.
Redaksiyaya daxil olan yazılar şərh edilmir və geri qaytarılmır.